10.61764/lasr.2.2023.82-89

**UOT 322.05**

**Pərvin Məmmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*p.q.memmedova@gmail.com*

# AZƏRBAYCANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ YEYİNTİ SƏNAYESİNİN YERİ VƏ ROLU

*Yeyinti sənayesi ölkənin ərzaq bazarına xammal tədarük edən iqtisadiyyatın ən qədim sahələrindən biridir.Yeyinti sənayesi məşğulluq, eləcə də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə xarakterizə olunur ki, bu da yeyinti sənayesində çalışanların sayının digər iqtisadi sahələrə nisbətən daha böyük xüsusi çəkiyə malik olması ilə səciyyələnir.Yeyinti sənayesində şirkətlərin sayının artırılması ölkədə yeyinti sənayesinin sosial-iqtisadi inkişafına təsir edəcək bir sıra sosial-iqtisadi problemlərin həllinə səbəb olacaqdır.*

***Məqsəd-*** ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində yeyinti sənayesinin yeri və rolunu açıqlamaq, bu istiqamətdə Respublikada həyata keçirilən tədbirlərin nəticələrini müəyyən etməkdən ibarətdir.

***Metodologiya***-iqtisad elmində məlum olan elmi abstraksiya, "başqa şərtlər eyni olduqda" şərti, statistik təhlil metodlarından istifadə olunmuşdur.

***Tədqiqatın nəticələri və praktiki əhəmiyyəti-***Respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kənd təsərrüfatı emal yeyinti sənayesində görüləcək işi, onların tətbiqi ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi aspektləri təhlil edilmiş, onların yaxşılaşdırılması imkanları göstərilmişdir.

***Təqdiqatin elmi yeniliyi-***qida təhlükəsizliyinin təmin edilməsi istiqamətləri, iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsulların keyfiyyət və rəqabətqabiliyyətliyinin artırılması yolları göstərilmişdir.

***Açar sözlər:*** yeyinti sənayesi, ərzaq təhlükəsizliyi,ərzaq bazarı, məşğulluq, sosial-iqtisadi inkişaf, sosial-iqtisadi problemlər

## Giriş

Ehtiyac sırasına görə, qida və içki ehtiyacı əsas və əvəzolunmaz ehtiyaclar sırasında birinci yerdə durur. Yeyinti sənayesi bütün dünyada iqtisadi inkişaf mənbəyi olmuşdur. Yeyinti sənayesi, geriyə və irəli bağlılığı ilə iqtisadi inkişaf dinamizmini təmin edən bir sektordur. Qida və içki sektoru istehsal sənayesinin alt sektoru hesa edilir. Qeyd edək ki, iqtisadiyyatın performansı emal sənayesinin inkişafı ilə ölçülür. Araşdırma aparılan dövrdə emal sənayesində investisiya tələbatı və həcminin lazımi səviyyədə artmadığı müəyyən edilmişdir. İstehsal sənayesində investisiya tələbatı və həcmində genişlənmənin olmaması, xarici asılılığın yüksək olduğu Azərbaycan iqtisadiyyatında bu asılılığın daha da artacağını göstərir. Dünyanın artan qida ehtiyacını nəzərə alaraq deyə bilərik ki, beynəlxalq standartlara uyğun məhsul istehsal etmək qabiliyyətinə malik olan yeyinti sənayesi iqtisadiyyatın lokomotiv sektorlarından biri ola bilər. Qida sektorunda şirkətlərin sayının çox olması bu sektorda rəqabətin artmasının göstəricisidir.

Hazırda Azərbaycan Respublikasının qida sənayesinin, eləcə də perspektivli bir iqtisadi sektor olaraq sənayenin qarşısında sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə edilən iqtisadi artımın sabitliyini qorumaq və gücləndirmək, mövcud olanı maksimum dərəcədə artırmaq vəzifəsi durur.

Yuxarıda göstərilən vəzifələri yerinə yetirmək və həyata keçirilmək, yeyinti sənayesinin sosial-iqtisadi inkişaf problemlərini həll etmək üçün ölkənin regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının həyata keçilməsi istiqamətində qəbul edilmiş tənzimləyici- hüquqi inkişaf konsepsiyaları, aktlar, əmr və qərarlar qəbul edilmişdir [4-6]. Bütün bu proqramların qəbul

edilməsinin və həyata keçirilməsinin əsas məqsədi regionlarda yeyinti sənayesinin inkişafı, yerli istehsalının genişləndirilməsi, iş yerlərinin açılmasından ibarətdir.

Dünya ölkələrində olduğu kimi, respublikamızda da yeyinti sənayesi ölkənin sosial – iqtisadi inkişafında aparıcı rola malikdir.Yeyinti sənayesində həyat keçirilən tədbirlər kompleksi ümumiləşdirilmiş şəkildə aşağıdakılara xidmət edir:

-məşğulluğun artırılmasına;
-ərzaq təhlükəszilyini təmin edilməsinə;
-iqtisadi təhlükəsziliyin təmin edilməsinə;
-regionların tarazlı inkişaf etdirilməsinə.

**Ərzaq təhlükəsizliyi**

Müasir dövrdə ərzaq tədarükü idxaldan asılıdır, buna görə də ölkələr arasındakı münasibətlər münaqişəyə çevrilsə, ölkə ərzaq qıtlığı problemi ilə üzləşə bilər. Ərzaq təhlükəsizliyi yalnız o halda təmin edilə bilər ki, ölkədə istehsal olunan ərzaq daxili tələbatı ödəməklə yanaşı ixrac potensialına malik olsun və xarici bazarlarda rəqabətini davam etdirə bilsin.

Qlobal dünyada insanların əksəriyyəti aclıq təhlükəsi ilə qarşılaşır.Bu problemin həlli təkcə geniş həcmdə ərzaq istehsalında deyil, həm də adambaşına düşən gəlirin qeyri -bərabər bölgüsündə və istehsal olunan məhsulun alıcılıq qabiliyyətindədir. Qlobal ərzaq təhlükəsizliyinə nail olmaq üçün ölkələr arasında qida məhsullarının satış bazarlarını düzgün təşkil etməyə çalışmaq və bu məhsulları nisbətən sabit və razılaşdırılmış qiymətlərlə satmaq lazımdır. Bu halda hər hansı bir ərzaq məhsulunun istehsalı üzrə ixtisaslaşmış ölkələrdə idxal olunan məhsullar ölkə sərhədlərindən daha az maneələrlə üzləşərlər. İstənilən məhsulun istehsalında ixtisaslaşma qloballaşma tendensiyalarının artması digər ölkələrin daha ucuz idxal məhsulları almasına səbəb olur. Bir sıra üstünlüklərə əlavə olaraq bu sahədə ölkənin istehsal gücünün itirilməsinə və asılılığına səbəb olur və bu potensial təhlükədir. Milli ərzaq təhlükəsizliyi daha az ərazi istehsal prosesinə və əlaqələrinə əsaslansa da, geniş strateji üstünlüyə malikdir. Ölkə müəssisələrinin mövcud resurslarından tam və qismən istifadə etməklə məhsul istehsalı ilə daxili ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin ehtiyaclarının geniş miqyasda ödənilməsi üçün əhalinin sağlamlığının və rifahının yüksəlməsinə xidmət edir [9, s.235-242]. Ərzaq təhlükəsizliyi yalnız həcm baxımından tələbatı tam təmin edə biləcək məhsul istehsalı deyil, həm də əhalinin gəlir səviyyəsinə əsasən ərzaq məhsullarının əldə edilə bilməsinin mümkünlüyü ilə də bağlıdır.

Beynəlxalq təşkilatların apardığı araşdırmalara görə hər hansı bir ölkə öz daxili resursları hesabına əhalisinin 70 % - ni təmin edə bilirsə bu ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması deməkdir. Buradan belə nəticəyə gələ bilərik ki, idxal olun məhsulların 30 % -dən çox olması ərzaq təhlükəsizliyi baxımından təhlükəli hesab olunur.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi əsasən əhalinin gündəlik təlabatını ödəyən ərzaq istehsalının təşkilinə əsaslanır. Bu növ starteji məhsullara çörək və çörək məhsulları, süd, yumurta, şəkər, bitki yağı, çay və s. məhsullar aid edilir.

Azərbaycan respublikasında çay əkinlərinin stimullaşdırılması məqsədilə “Çayçılıq haqqında“ Qanun qəbul edilmişdir. Bu sahədə selektiv toxumların olmaması; məhsuldarlığı yüksək olan toxumun əldə edilməsindəki çətinliklər; ziyanvericilərə qarşı dərman preparatlarının olmaması; texnikanın lazımi inkişaf səviyyəsində olmaması və təchizat problemi ilə əlaqədar olaraq məhsulun vaxtında sahələrədən toplanması işinin yekunlaşdırıla bilməməsi və sair kimi faktorlar ciddi miqyasda bu sahənin inkişafına mənfi təsir göstərir və məhsulun böyük hissəsi qonşu dövlətlərdən idxal edilir [3].

Hazırda daxili imkanlar hesabına əhalinin əsas ərzaq məhsullarına olan ehtiyacını ödəmək üçün ixracatın idxala nisbəti 42-58% arasında dəyişdiyindən qida təhlükəsizliyinin hələ də təmin edilmədiyini görürük. Mövcud çətinliklərə baxmayaraq ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə məhsul istehsalının həcminin artırılması imkanları çox genişdir. Bunun əsas istiqamətlərinin dövlət sərmayələri olduğuna və bu investisiyaların mövcud inkişafa xidmət etdiyinə əmin olmaq vacibdir. Son illərdə respublikamızın hüdudlarında qida istehsalının azaldığını müşahidə edə bilərik. Ölkəmizdə kənd təsərrüfatı və qida istehsalı daxili tələbatı ödəmir

və adambaşına düşən istehsal digər ölkələrdən daha aşağıdır. Mövcud resursların bolluğunu nəzərə alaraq, bu göstəriciləri yaxşılaşdırmaq mümkündür. Əhalinin nisbətən aşağı gəlir səviyyəsi qida sənayesinin sektor quruluşuna təsir göstərir. Bu, bahalı ərzaq məhsullarının alıcılıq qabiliyyətini azaldır. İlk növbədə bunu nəzərə alaraq daxili tələbatı ödəməyə, əhalinin real alıcılıq qabiliyyətini artırmağa çalışmalıyıq və sonra ixracyönümlü istehsal fəaliyyətinə başlamalıyıq. Bütün bunları nəzərə alaraq, gələcəkdə qida sənayesində ixracat nəzərə alınmaqla struktur dəyişikliklərinin edilməli olacağını söyləmək olar. İqtisadi islahatların həyata keçirildiyi ölkəmizdə milli ərzaq tədarükünə zəmanət vermək, qloballaşma şəraitində ölkəni ərzaq məhsulları ilə təmin etmək üçün milli aqrar ərzaq kompleksi və təsirli bir quruluş yaratmaq lazımdır. Bunun əsas göstəricisi daxili bazarlarda tarifli və qeyri-tarif dərəcələrinin tətbiqidir. Çünki ərzaq məhsullarının yüksək qiymətləri və xarici məhsullarla rəqabət apara bilməməsi yerli sahiblərin son nəticədə müflisləşməsinə səbəb ola bilər.Bəzi ölkələr var ki, ərzaq bazarlarını qorumaq üçün tariflər tətbiq edən böyük daxili bazarlara malikdir.

Beləliklə, belə nəticəyə gələ bilərik ki, çatışmazlıqlara baxmayaraq ölkə ərzaq təhlükəsizliyinə nail olmaq, bununla iqtisadi təhlükəsizliyi təmin etmək potensialına malikdir. Planlaşdırılan istehsalın inkişafı prosesi düzgün təşkil edilərsə, bu potensialdan qida məhsullarına olan tələbat milli resurslarla təmin edilə bilər. Beynəlxalq bazarlarda tələb olunan ərzaq məhsullarının çatdırılması üçün dünya standartlarına cavab verən məhsulların normasını artırmaq və istehsalın tam avtomatlaşdırılmasına nail olmaq mümkündür. Bütün bunlar emal sənayesində şirkətlərin sayının artmasına səbəb olacaq və respublikanın bu sektorda iki böyük problemini: işsizlik və əhalinin alıcılıq qabiliyyəti həll etmiş olacaqdır.

Eyni zamanda, dövlətin bu sektorun potensialını artırmaq üçün daha çox kiçik biznes qurmaq imkanları yaratması müsbət təsir göstərə bilər.

**Azərbaycanda yeyinti sənayesinin inkişafı**

Sovet İttifaqı illərində respublikamızda iqtisadiyyatın digər sahələrində olduğu kimi yeyinti sənayesi də yüksək səviyyədə inkişaf etmiş və kənd təsərrüfatı sahəsində mexanikləşdirilmə tədbirləri həyat keçirilmişdir.Bu dövrdə yeyinti və kənd təsərrüfatının artan miqyasda inkişafı əhalinin maddi-rifah halının yüksəlməsinə səbəb olmuşdur. Əhalinin maddi – rifah halının yüksəlməsi onların həyat səviyyəsinin yaxşılaşmasına və bazarda alıcılıq qabiliyyətinin yüksəlməsi ilə müşahidə olunmuşdur. Ölkənin bazarlarında alıcılıq qabiliyyətinin artması respublikada mal dövriyyəsinin həcmini artırmışdır. Əhalinin sosial rifah halının yüksəlməsini onun tələb istiqamətini dəyişdirmiş onları daha qiymətli ərzaq məhsulları almağa sövq edir. Əslində müasir dövrdə əhalinin istehlak malları strukturunu onların rifah səviyyəsini müəyyənləşdirir. Rifah səviyyəsi aşağı olan əhali əsasən un və un məhsullarını istehlakına yönəlir.Əhalinin yaşam standartlarını yüksəlməsi keyfiyyətli ərzaq məhsullarının istehsalını qeyri-ərzaq məhsullarının istehsalını stimullaşdırır.

Müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının əsası əhalinin ərzaqla tam təmin edilməsindən asılıdır. Əhalinin ərzağa olan tələbatının ödənilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsindən və qida sənayesini xammalla təmin edən kənd təsərrüfatının inkişafından asılıdır. Ümumi istehsalın artması sosial-iqtisadi inkişafa səbəb olmur, əksinə adambaşına ərzaq istehsalının azalmasına səbəb olur. Bunun səbəbi alıcılıq qabiliyyəti və rəqabət qabiliyyəti aşağı olan məhsulların istehsalının düzgün təşkil edilməməsidir.

Yeyinti sənayesinin inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, kənd təsərrüfatı məhsullarının həcminin artırılmasından asılıdır. Qida təhlükəsizliyinin təmin edilməsi, o cümlədən bir neçə sahəni əhatə etməlidir ki, bunlar aşağıdakılardır :

1) Ərzaq təhlükəsizliyinin təmin etmək üçün əsas starteji məhsul çörək və çörək məmulatları istehsalının genişləndirilməsi, bunun həlli məqsədilə taxıl əkini sahələrinin genişləndirilməsi, selektiv toxumçuluğun inkişaf etdirilməsi, taxıl toxumlarının alınması üçün maliyyə yardımımının göstərilməsi, ziyanvericilərə qarşı preparatlarla təminatın yaxşılaşdırılması, texnoloji avadanlıqlardan istifadənin yaxşılaşdırılması, məhsulun təbii fəlakətlərə qarşı sığortalanmasının strukturunun təkmilləşdirilməsi vacibdir.

2) Ərzaq təhlükəsizliyinin təmin edilməsində heyvandarlıq məhsulları, ət və ət məhsulları istehsalını genişləndirməyə xidmət edir. Heyvandarlığın inkişafı yem istehsalının genişləndirilməsini vacib edir. Bu sektorun inkişafı ət və süd məhsulları sənayesinin istehsalının əsasını təşkil edir. Heyvandarlıqda yetişdirilən heyvanlar bu sahənin xammal bazası rolunu oynayır və xammalın hazırlanmasının keyfiyyətinin yaxşılaşdırılması, ümumi məhsulun keyfiyyətini yüksəltməklə istehsalın həcminin artırılmasını və bu sahədə intensiv metodlardan istifadə edərək iqtisadi səmərəliliyi artırmağa imkan verir.

Kənd təsərrüfatı məhsullarının istifadəsini artırmaq, keyfiyyətini birbaşa yaxşılaşdırmaq və əhalini keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək vacibdir. Bazar iqtisadiyyatı şəraitində ərzaq təhlükəsizliyinin təmini hər şeydən əvvəl keyfiyyətini mütləq dərəcədə artırmaq və bu prosesin davamlılığını təmin etməkdən ibarətdir. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması şirkətin daxili imkanlarının əmək və maddi resurslarından düzgün və məqsədli istifadə edilməsinə əsaslanır. Əhalinin ərzaq təhlükəsizliyinin təşkilində əsas amillərindən biri ehtiyaclarını ödəmək üçün xammal bazası rolunu oynayan strateji kənd təsərrüfatı məhsullarının- taxılın, meyvə-tərəvəzin, ətin və digərlərinin istehsal prosesinə cəlb olunması zamanı hazır məhsulun və xammalın daşınması anında, məhsulun istifadəyə yararlılıq müddətinin uzadılmasına xidmət edən saxlanılma şəraitinin yaxşılaşdırılması və satış prosesinin təşkilində yarana biləcək itkiləri minimuma endirmək və ya tamamilə aradan qaldırmaqdır.

Qida məhsullarının toplanması və düzgün saxlanılması istehsalçıların əsas qayğılarından biridir və diqqət mərkəzində saxlanılmalıdır. Çünki hər bir məhsulun istifadəsinin həcmini və keyfiyyətini artırmaq o qədər də çətin iş deyil. Lakin istifadə olunan məhsul istehlakçıların tələbatını ödəmirsə, emal sənayesinin standartlarından aşağıdırsa, istədiyimiz səmərəlilik səviyyəsinə çata bilmərik. Xüsusilə məhsul yığımından sonra düzgün saxlanılmadığı təqdirdə geniş miqyasda xammal və keyfiyyət itkisinə yol açır. Dünyanın İEÖ-də məhsulun istehsal prosesində ən son elmi texniki nailiyyətlərdən istifadə edilir. Buna görə də hazır məhsul istehsalında itkiləri tamamilə aradan qaldırılmaq mümkün deyil. Məlumatlara görə İEÖ-də taxılı (toxum) saxlayarkən 10% və daha çox, meyvə və tərəvəzi saxlayarkən isə 30%-ə qədər itkiyə yol verilir. Respublikamızda bu göstəricinin daha yüksək olması taxıl toxumlarının saxlanma şərtlərinə düzgün əməl edilməməsi səbəbindən əlavə olaraq əkin sahələrinə təqribən 70000-80000 ton əlavə toxum səpilir.

Beləliklə yeyinti sənayesi müəssisələrində istehsalı, xammal tədarükü, hazır məhsulların anbarlarda saxlanılması, məhsulun daşınması və satışının düzgün təşkil edilərsə nəzərə çarpacaq dərəcədə iqtisadi inkişafa nail olmaq mümkündür. Bu məsələni reallaşdırmaq üçün yeyinti sənayesi müəssisələrində ərzaq məhsullarının xüsusi daşınma və saxlanma şəraitinin təşkili tələb olunur.Məhz bu yolla ölkənin sosial-iqtisadi inkişafı əsasında ölkədə ərzaq təhlükəsizliyi təmin edilə bilər.

Ölkədəki mövcud yeyinti sənayesi müəssisələrinin və təşkilatlarının himayədarlıq etdiyi köməkçi təsərrüfat müəssisələrinin yaradılması ərzaq təhlükəsizliyi probleminin həllinə yönəlib. Bu köməkçi təsərrüfat müəssisələri regionlarda əhalinin ərzaq təminatını yaxşılaşdırır, həm də regionların sosial iqtisadi inkişafını stimullaşdırır. Respublikada "Azərsun Holdinq"in nəzdində regionlarda yaradılan yeyinti sənayesi müəssisələri region əhalisinin maddi rifahının yaxşılaşdırılmasına, ərzaq təminatı probleminin həllinə, regionlarda işsizliyin aradan qaldırılmasına, ölkənin diversifikasiyalı inkişafına təkan verir. Bu müəssisələr istehsalı prosesində məhsulun rəqabət qabiliyyətini təmin edən və ixrac potensialını artıran ən son texnologiyalardan istifadə edilir. İxrac potensialının artırılması ölkəmizə xarici valyutanın daxil olması ilə nəticələnir.

**Ərzaq təhlükəsizliyi tədbirləri**

Respublika əhalisinin ərzaq təminatını yaxşılaşdırmaq üçün həyata keçiriləcək məsələlərdən biri də təkcə dövlət müəssisələrindən özəl müəssisələrə deyil, həm də fərdi təsərrüfatlarda və ailə təsərrüfatlarında ərzaq istehsalının artırılmasıdır. Bu məqsədlə də dövlət tərəfində stimullaşdırıcı maliyyə yatırımlarının və güzəşli kreditlərin verilməsi nəzərdə tutulur.

Ailə Biznesinə Asan Dəstək (ABAD) İnkişaf Mərkəzi 23 sentyabr 2016 -cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradılmışdır. Bu layihənin icrası vətəndaşların Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında fəal iştirakına, məşğulluğunun artırılmasına, kiçik və orta sahibkarlığın inkişafına və rəqabətə davamlı məhsullar istehsal edən ailə təsərrüfatlarının reallaşdırılmasına dəstək üçün sosial inkişaf tədbirlərinin həyata keçirilməsinə şərait yaradır. ABAD (Ailə Biznesinə Asan Dəstək) Mərkəzləri kənd təsərrüfatında fəaliyyət göstərən ailə biznesləri üçün sosial yönümlü inkişaf fəaliyyətləri və dəstək layihələri həyata keçirir. Mərkəz eyni zamanda biznes planlaşdırma, marketinq, menecment, dizayn, maliyyə uçotu, hüquqi yardım və ailə xidmətləri göstərir. Sonda ailə təsərrüfatları tərəfindən satılan məhsulların sertifikatlaşdırılması, satışının təşkili və logistika işləri "ABAD" tərəfindən həyata keçirilir [11]. Lakin əhalinin şəxsi həyətyani sahələrində reallaşdırılan ərzaq təhlükəsizliyinin təminatını yaxşılaşdırılmasına xidmət edən məhsul istehsal həcminin artırılmasındakı potensial imkanlarından demək olar ki, tam istifadə olunmur. Dövlət çox zaman bu təsərrüfat subyektlərinin inkişafını ərzaq təhlükəsizliyinin təşviqi faktoru kimi ciddi qəbul etmir. Xüsusilə heyvandarlıq məhsullarının istehsalının genişləndirməsi işinin şəxsi təsərrüfatlarında yerləşdirilməsi mal-qara və qusçuluq sahələrində həyata keçirilir. Bu da ərzaq təhlükəsizliyinin təminində əsas olan heyvandarlıq məhsullarına tələbin ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Bu şəxsi təsərrüfatlarda tədarüklərin artırılması, ətlik və südlük iribuynuzlu mal qaranın gətirilməsi heyvanların sayının artırılması, balıqçılıq təsərrüfatlarının inkişafı məqsədilə vətəgələrin yardılması və balıqları çoxaltmaqla balıq ovunun həyat keçirilməsinin təşkili əhalinin strateji məhsullara olan tələbatının ödənilməsində dövlətin qarşısında duran mühüm vəzifələrdəndir. Regionlarda, daha doğrusu, regionun kəndlərində meyvə-tərəvəz məhsullarını emal müəssisəsi istehlakçılarına çatdırılması üçün təşkili, nəqliyyat strukturunun yenidən layihələndirilməsi, itkilərin azaldılmasına və bitkiçilik məhsulları ilə təminatın yaxşılaşmasına xidmət göstərəcəkdir. Son vaxtlar ölkə üzüm və üzümçülük məhsulu olan şərabın, meyvə -tərəvəz konservi, çay, tütün məhsullarının emalının həcminin artırılmasına nail olmuş bu məhsulların ixrac potensialını artırmış və bu sahədə ixtisaslaşmışdır. Daxili bazarın tələbatının ödənilməsində bitkiçilik və heyvandarlıq məhsullarının tələbatının təminində istehsal həcmini artırılması ilə əhalinin sayının da artması bu işin başa çatdırılmasını çətinləşdirən amillərdən biridir.

Bu məsələlərin həlli məqsədilə dövlət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan bir çox layihələr mövcuddur. Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə nəticələnir ki, bu da yeyinti sənayesi müəssisələrinin dinamik inkişafını tələb edir. Azərbaycanda yeyinti sənayesi müəssisələrinin bir sıra bölgüsü mövcuddur və bunlardan ən geniş yayılanları aşağıdakılardır:

1.Qida məhsullarını emalı sənayesi- kolbasa məhsulları, kərə yağı, pendir istehsalı, un, çörək və çörək məmulatları, yağlılıq dərəcəsi 1-% olan süd, yağlılıq dərəcəsi 6-29 % olan qaymaq, bitki yağları, konservləşdirilmiş meyvə və tərəvəzlər, qənnədı məmulatlarının istehsalı, duz, yodlaşdırılmış duz, dondurma, marqarin məhsulları, makaron məmulatı, təbii çay və s. məhsulların istehsalının emalını həyata keçirir.

2.İçki istehsalı sənayesi- araq, üzüm şərabı, əmtəəlik şampan şərabı, konyak, pivə, sərinləşdirici içkilər, mineral sular.

3.Tütün məhsullarını istehsalı sənayesi-tütün fabriki, tütün sənayesi emalı məhsulları və s.

Yeyinti sənayesi müəssisələrində ərzaq təhlükəsizliyinin təmin edilməsi, sosial-iqtisadi inkişafın təşkilində əsasən yeni sənaye müəssisələrinin yaradılması, köhnə müəssisələrin yenidən qurulması və istehsalın genişləndirilməsi, istehsal üçün ən son nailiyyətlərin tətbiq edilməsi üsulları ilə məhsulların ixrac potensialının artırılması üçün tədbirlər görülmüşdür. Ölkənin yeyinti sənayesi bitkiçilik və heyvandarlıq məhsullarının emalına əsaslanır ki, bunun da 85%-i bitkiçilik təşkil edir. Bu sahədə böyük ixrac potensiala malik olan meyvə-tərəvə konservi və şərabçılıq lider mövqeyə malikdir. Bu sənaye sahələri üçün xammal tədarükü yerli kənd təsərrüfatı məhsulları hesabına ödənilir və hazır məhsulun çox hissəsi (şərabın 90%-i, meyvə-tərəvəz konservinin 30% -i ) ixrac olunur. Tütün sənayesi emalında əsas rol oynayan "Baku European Tobacco " ASC-nin istehsal etdiyi məhsul yerli xammala əsaslanmaqla ixrac potensialına malikdir. Əhalinin strateji

təminatının əsasını təşkil edən çörək və çörək məhsullarının istehsalı Bakıda və bölgələrdə mövcud olan çörək zavodları hesabına ödənilir. Bu zavodların xammal bazasının bir hissəsi daxili tələbata, digər hissəsi isə idxal xammala əsaslanır. Gələcəkdə taxıl və taxıl məhsullarına olan tələbatın yerli istehsal əsasında qurulması və idxaldan asılılığın aradan qaldırılması planlaşdırılır. Bakıda və bölgələrdə yerləşən bu sənaye müəssisələri iqtisadiyyatın şaxələndirilməsinə, bölgələrin sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə, əhalinin ərzaqla təmin olunmasına, bölgələrdə yeni iş yerləri açmaqla işsizliyin aradan qaldırılmasına, bölgə əhalisinin rifah halının yaşxılaşdırılmasına töhfə verir. Bu müəssisələrə "Ağsu Çörək " MMC , " Karmen MMC" makaron fabriki, "Sərham" MMC çörək zavodu, Ağstafa Taxıl və Un Məmulatları Kombinatı, Xaçmaz çörək kombinatı, Sumqayıt çörək zavodu, " Muğan "ASC çörək zavodu , "Sümbül " ( Şəki ) çörək zavodu, Bərdə çörək zavodu, "Qarabağ " çörək zavodu (Bərdə ), Ordubad çörək zavodu, "Gilan Holding" in N 1 çörək zavodu, Bakıxanov çörək zavodları vardır. Daha bir müəssisə " Çörəkçi" zavodu kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri və "Delta Group C.O." MMC-nin maliyyə yatırımları hesabına 2013-cü ildə təsis edilmişdir. Zavodun yaradılmasında əsas məqsəd istehsal prosesini tam avtomatlaşdırmaq və steril şəraitdə çörək və çörək məmulatları istehsalına nail olmaqla daxili tələbatı tam ödəməkdir. Bu zavodun istehsal gücü 150 tondur və kompleksə hər birinin tutumu 4000 ton olan 6 anbar daxildir. Anbarda saxlanılma texnologiyası Türkiyənin aparıcı şirkətlərinin texnikası əsasında qurulmuşdur. Anbarlarda saxlanılan məhsul taxıl məhsullarını uzunmüddətli dövrdə saxlanılmasına zəmanət verməklə yanaşı, istehsalın davamlılığının təmin edilməsində mühüm rol oynayır. Bu zavodda zavod çörəyi, baton ekstra, baton sadə, baton kəpəkli, sağlam çörək, suxari çörəyi, pəhriz çörəyi,zirəli çörək, fermer, kömbə çovdarlı, borodino, pribaltika, kurasan və bulka kimi un və un məhsulları istehsal edilir.

Ərzaq təhlükəsizliyinin təmini edilməsi birbaşa iqtisadi təhlükəsizliyə gətirib çıxarır. İqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsini istehsal olunan ərzaq məhsullarının həcmini, keyfiyyətini və rəqabət qabiliyyətini artırmaq ilə həll etmək olmur [4]. Burada iki məsələni həll etmək lazımdır:

1. Nəqliyyat strukturunun təkmilləşdirilməsi- istehsal olunan məhsulların logistika siyasəti düzgün planlaşdırılmasa və təşkil olunmasa iqtisadi itkilərə səbəb olur. İstehsal olunan məhsul müddəti alıcı bazarına çatdırılmadan bitir. Bəzən xammal resursları emal müəssisələrinə çatdırılmadan sahədə yararsız hala düşür və xarab olur. Bu xammal emalında istehlakçıların təklif ediyi qiymət məhsulun maya dəyərindən aşağı olduqda və məhsul istehsalçısı ilə emal istehlakçısı arasında razılaşma olmadıqda baş verir.

2. İdarəetmə quruluşu tərəfindən satış kanallarının və satış bazarının adekvat analizinin olmaması - məhsullar nəqliyyat vasitəsi ilə bazarlara və ya emal müəssisələrinə çatdırılsa belə, hazır məhsul bazarında xammala olan tələbat mənfi ola bilər. Bu səbəbdən bazarlarda mövcud olan yüksək qiymətli ərzaq məhsullarına marağın olmaması əhalinin gəlir səviyyəsinin aşağı olması ilə əlqədardır. Əgər hər hansı bir yeyinti sənayesində bir şirkət əmtəə üzərində öz istehsal və satış portfelini qurarsa, iqtisadi fayda əldə etməkdən söhbət gedə bilməz. Bu səbəbdən də əhalinin maddi rifahı yeyinti sənayesinin quruluşunu təyin edən əsas amillərdən biridir. Əhalisinin gəlir səviyyəsi aşağı olan respublikalarda yeyinti sənayesinin sahə quruluşu əsasən un və un məmulatlarının emalına əsaslanır. Ucuz çörək və çörək məmulatları ölkəmizdə böyük alıcılıq qabiliyyətinə malik bir sahədir.

**Nəticə**

Son illərdə ölkəmizdə ixrac potensialının genişləndirilməsi ərzaq məhsulları bazarını genişləndirmiş, ərzaq məhsullarının ixracını və xarici ticarət əlaqələrini xeyli yaxşılaşdırmışdır. Ərzaq potensialını artırmaq üçün dünyanın əksər ölkələrindən idxal olunan texnologiya məhsulların keyfiyyətini və rəqabət qabiliyyətliyini artıraraq daxili tələbatı ödəmiş, eyni zamanda məhsulların beynəlxalq bazarlara çıxmasını çox asanlaşdırmışdır. İstehsal prosesinin əsas həlqəsi olan istehsalı xammalla təmin edən kənd təsərrüfatı məhsullarının həcminin artırılmasına dair dövlət dəstəyi tədbirləri iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynamışdır.

10.61764/lasr.2.2023.82-89

Azərbaycanın maliyyə sərmayələri öz növbəsində nəzərdə tutulan məqsədinə çatmış, bölgələrdə və paytaxtda müəssisələrin yaradılmasının və mövcud müəssisələrin yenidən qurulmasının sürətlənməsinə kömək etdi. Ölkədə kənd təsərrüfatı və yeyinti sənayesinin inkişafının koordinasiyası, aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi, təşkilatı strukturunun təkmilləşdirilməsi ilə yanaşı sosial problemlərin həllində mühüm rol oynayaraq sosial-iqtisadi inkişafa birbaşa təsir göstərir.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncam;
2. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 18 noyabr 1999-cu il, № 759-IQ;
3. "Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 17 dekabr 2002-ci il, № 402-IIQ;
4. "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı şəhəri, 11 fevral 2004-cü il № 24;
5. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, 2008-ci il 25 avqust;
6. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı şəhəri, 14 aprel 2009-cu il. № 80;
7. "Azərbaycan 2020: gələcəyə baxış"inkişaf konsepsiyası, Bakı şəhəri, 29 dekabr 2012;
8. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118;
9. **Quliyev, E.A.** Qlobal qida təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər / E.A.Quliyev. -Bakı: Kooperasiya Nəşriyyatı, -2018. -480 s.
10. Hüseynov, T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, -2000.- 345 S.
11. https://abad.gov.az/about


**Парвин Мамедова**

## МЕСТО И РОЛЬ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ В ОБЕСПЕЧЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

**Резюме**

*Пищевая промышленность-одна из старейших отраслей экономики страны, поставляющая сырье на продовольственный рынок.Пищевая промышленность характеризуется занятостью, а также обеспечением продовольственной безопасности страны, что обусловлено большим удельным весом численности занятых в пищевой промышленности по сравнению с другими отраслями экономики.Увеличение числа компаний в пищевой промышленности приведет к решению ряда социально-экономических проблем, которые повлияют на социально-экономическое развитие пищевой промышленности в стране.*

***Цель***-раскрытие места и роли пищевой промышленности в обеспечении продовольственной безопасности страны, выявление результатов мероприятий, проводимых в республике в этом направлении.

***Методология***-научная абстракция, известная в экономической науке, при которой используются условные, статистические методы анализа, "когда другие условия одинаковы".

***Результаты и практическая значимость исследований***-предстоящая работа в пищевой промышленности по переработке сельскохозяйственной продукции для обеспечения продовольственной безопасности в республике, аспекты повышения уровня жизни населения с их применением, ука*заны* возможности их улучшения.

***Научная новизна исследовании***-указаны направления обеспечения продовольственной безопасности, пути обеспечения экономической и продовольственной безопасности, повышения качества и конкурентоспособности продукции.

***Ключевые слова:*** пищевая промышленность, продовольственная безопасность, продовольственный рынок, занятость, социально-экономическое развитие, социально-экономические проблемы

**Parvin Mammadova**

**THE PLACE AND ROLE OF THE FOOD INDUSTRY IN ENSURING THE FOOD SECURITY OF AZERBAIJAN**

**Summary**

*The food industry is one of the oldest branches of the country's economy, supplying raw materials to the food market.The food industry is characterized by employment, as well as ensuring the country's food security, which is due to the large proportion of the number of people employed in the food industry compared to other sectors of the economy.An increase in the number of companies in the food industry will lead to the solution of a number of socio-economic problems that will affect the socio-economic development of the food industry in the country.*

***Purpose-*** disclosure of the place and role of the food industry in ensuring food security of the country, identification of the results of activities carried out in the republic in this direction.

***Methodology-*** a scientific abstraction known in economics, in which conditional, statistical methods of analysis are used, “when other conditions are the same.”

***Findings and practical significance of the study-*** the upcoming work in the food industry on the processing of agricultural products to ensure food security in the republic, aspects of improving the standard of living of the population with their use, the possibilities of their improvement are indicated.

***Scientific novelty of the research***- the directions of ensuring food security, ways of ensuring economic and food security, improving the quality and competitiveness of products are indicated.

***Keywords:*** food industry, food security, food market, employment, socio-economic development, socio-economic problems